BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№4 Sosial-siyasi elmlər seriyası 2005

# QADINLARIN CİNAYƏT-HÜQUQİ MÜHAFİZƏSİNİN İNKİŞAF TARİXİNDƏN

Ə.İ.ƏLİYEV

*Məqalə insan və vətəndaş hüquq və azadlıqlarının təminatı sahəsində əsas məsələlərdən biri olan qadın hüquqlarının cinayət hüquqi mühafizə məsələlərinə həsr olunmuşdur. Məqalədə Azərbaycan Respublikasının cinayət qanunvericiliyi tarixinə ekskursiya edilərək, qadın hüquqlarının mühafizəsini nəzərdə tutan normalar araşdırılır. Məqalədə tədqiq edilən dövrdə qadın hüquqlarının mühafizəsini nəzərdə tutan normaların təkmilləşdirilməsində Azərbaycan xalqının keçdiyi uzun inkişaf yolu, yerli şərait, xalqın əsrlər boyu yaşatdıqları adət və ənənələrin və digər xüsusiyyətlərin kifayət qədər nəzərə alınmadığı böyük təəssüflə qeyd olunur.*

*Məqalədə Azərbaycan Respublikasının cinayət qanunvericiliyinin inkişaf tarixinin öyrənilməsinin qadın hüquq və azadlıqlarının mühafizəsi sahəsində olan cinayət hüquq normalarının təkmilləşdirilməsi və bu qəbildən olan cinayətlərlə mübarizə aparmaq üçün əhəmiyyətli olması qeyd olunur.*

Hər hansı bir ölkənin tam və hərtərəfli inkişafı, bəşəriyyətin rifahı və sülh siyasəti qadınların bütün sahələrdə kişilərlə maksimum bərabər hüquqlar əsasında iştirakını tələb edir. Hələ məşhur filosof Aristotel demişdir : «O dövlət quruluşunda ki, qadınların hüququ tapdalanır, həmin dövlətin yarısı qanunsuzdur».

12 noyabr 1995-ci ildə ümumxalq referendumu yolu ilə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyasına əsasən dövlətin ali məqsədi irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, siyasi və sosial mənsubiyyətindən və digər təzahürlərdən asılı olmayaraq hər bir şəxsin hüquq və azadlıqlarını qorumaqdır.

Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinin II bəndi kişilərin və qadınların eyni hüquqlarını, 35-ci maddəsinin II bəndi hər kəsin əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququnu nəzərdə tutur.

Eyni zamanda Azərbaycan Respublikası son illərdə qadınların statusunu müəyyən edən bir sıra beynəlxalq Konvensiyalara qoşulmuşdur: Qadınların siyasi hüquqları haqqında BMT-nin 20 dekabr 1952-ci il tarixli Konvensiyası (qoşulma haqqında Qanun

04.08.1992); Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında BMT-nin 18 dekabr 1979-cu il tarixli Konvensiyası (qoşulma haqqında Qanun 30.06.1995) ; Nikahın bağlanması üçün razılıq, minimal yaşayış və nikahların qeydiyyatı haqqında BMT-nin 7 noyabr 1962-ci il tarixli Konvensiyası (qoşulma haqqında Qanun 31.05.1996); Ərdə olan qadının vətəndaşlığı haqqında BMT-nin 29 yanvar 1957-ci il tarixli Konvensiyası (qoşulma haqqında Qanun 31.09.1996).

Qüvvədə olan Cinayət Məcəlləsində qadınların hüquq və azadlıqlarını cinayətkar qəsdlərdən qoruyan çoxlu sayda cinayət-hüquq normaları nəzərdə tutulmuşdur: cinsi zorakılıq (mad.108); məcburi hamiləlik (mad.108-1), ananın yeni doğduğu uşağı qəsdən öldürməsi (mad.121), qanunsuz abort etmə (mad.141), zorlama (mad. 149), seksual xarakterli zorakılıq hərəkətləri (mad. 150), seksual xarakterli hərəkətlərə məcbur etmə (mad. 151), on altı yaşına çatmayan şəxslə cinsi əlaqədə olma və ya seksual xarakterli digər hərəkətlər etmə (mad. 152), hamilə qadının və ya himayəsində üç yaşınadək uşağı olan qadının əmək hüquqlarını pozma (mad. 164), yetkinlik yaşına çatmayanları fahişəliyə və ya əxlaqsız əməllərə cəlb etmə (mad. 171) və s.

Qadın hüquqlarının cinayət hüquqi vasitələrlə mühafizəsi uzun və mürəkkəb inkişaf yolu keçmişdir. Bu sahədə insan hüquq və azadlıqlarının etibarlı, hərtərəfli təminatı üçün bu hüquqların mühafizəsinin inkişaf tarixinə ekskursiya etməklə qadın hüquqlarını cinayətkar qəsdlərdən qoruyan normaları nəzərdən keçirmək, onların tətbiqi praktikasını öyrənmək, təkmilləşmə prosesini izləmək mühüm əhəmiyyət kəsb edir.

Bu məqsədlə cinayət qanunvericiliyinin sovet dövrünü təhlil etmək maraqlıdır. Məlumdur ki, birinci Azərbaycan sovet Cinayət Məcəlləsi 3 dekabr 1922-ci ildə qəbul olunmuş, 1923-cü il yanvar ayının 27-də qüvvəyə minmişdir. Qadın və kişilərin hüquq bərabərliyini təmin etməyə çalışan Sovet hökuməti ilk cinayət qanununda əsas diqqətini qadınların sağlamlıq, nikah, şəxsi və cinsi azadlıq hüquqlarının mühafizəsinə yönəltmişdir. Belə ki, bu Məcəllənin 146-cı maddəsində kifayət qədər tibbi hazırlığı olmayan və ya xüsusi tibbi hazırlığı olmayan və ya xüsusi tibbi hazırlığı olan şəxslər tərəfindən ancaq lazımi şərait olmayan yerdə ananın razılığı ilə dölün qovulması və ya süni olaraq hamiləliyin dayandırılmasına görə, 159-cu maddədə isə qadının iradəsi əleyhinə olaraq onunla nikaha girmək məqsədi ilə və ya başqa digər məqsədlər üçün oğurlamağa görə məsuliyyət nəzərdə tutulurdu. Sonuncu maddənin qeyd hissəsi yerli adətə uyğun olaraq qadının onun razılığı ilə oğurlanması cinayət məsuliyyətini rədd edirdi.(1)

1922-ci il CM-nin «Cinsi münasibətlər sahəsində cinayətlər» fəslində qadın hüquqlarının cinayət-hüquqi mühafizəsi 6 maddə ilə əhatə olunurdu. Həmin fəsildə cinsi yetkinliyə çatmayanla cinsi əlaqədə olma (maddə 166), zorlama və ya cinsi ehtirası qeyri-təbii formada təmin etmək məqsədi ilə cinsi yetkinliyə çatmayanla cinsi əlaqədə olma (maddə 167), azyaşlılara və yetkinlik yaşına çatma-

yanlara qarşı əxlaqsız hərəкətlər etməкlə onların əxlaqlarını pozma (maddə 168), zorlama, yəni fiziкi və ya psixi zor tətbiq etməкlə və ya zərərçəкənin кöməкsiz vəziyyətindən istifadə etməкlə cinsi əlaqədə olma (maddə 169), fiziкi və ya psixi təsir göstərməкlə, tamah və sair şəxsi niyyətlə qadını fahişəliyə cəlb etmə (maddə 170), oğraşlıq, əxlaqsızlıq yuvaları saxlama, habelə qadınları fahişəliyə cəlb etmə (maddə 171) кimi əməllərə görə məsuliyyət müəyyən olunurdu. (2)

Bu normalar birinci sovet Cinayət Məcəlləsinin qüvvədə olduğu ilк illərdə belə təкmilləşməyə məruz qalmışdır. Belə кi, 16 iyun 1923-cü il tarixli Az MİK-in Plenumunun 3-cü sessiyasında qəbul olunmuş qərara əsasən 159-cu maddənin məzmunu dəyişdirilmiş və qadınların valideynləri və ya onların maddi və ya hər hansı səbəbdən asılı olduqları şəxslər tərəfindən satılması, eyni ilə alınmasına görə məsuliyyət müəyyən olunmuşdur. Bu maddənin II hissəsi azyaşlının satılması, alınması və ya bu əməlin xüsusi ağırlaşdırıcı hallarla müşayiət olunmasına görə məsuliyyət yaradırdı. Eləcə də ASSR-in hüdudlarında və hüdudlarından кənarda zorla ərə verməк məqsədi ilə aldatmaqla qadınları oğurlama və ya aparma və ərə vermə, satma, əxlaqsızlıq yuvalarına yerləşdirmə, qul etmə və ya digər hərəкətlər etməyə görə CM-yə yeni 159.6-cı maddə daxil edildi. Eyni zamanda həmin qərar CM-in 167-ci maddəsinin dispozisiyasını dəyişdirərəк zorlama və ya cinsi ehtirası pozğun formada təmin etməкlə əlaqədar olaraq, cinsi yetкinliyə çatmayan şəxslə cinsi əlaqəyə girməyə görə məsuliyyət müəyyən etdi. (3)

Qadın hüquqlarının cinayət-hüquqi mühafizəsinin maraqlı məqamlarından biri də o, olmuşdur кi, Az MİK-in 15 noyabr 1924-cü il tarixli qərarı ilə CM-yə кöləliкdən azad olunması və hüquqlarının həyata кeçirilməsi ilə bağlı qadının öldürülməsinə görə məsuliyyət müəyyən edən 142.6-cı maddənin daxil edilməsidir. Bu əmələ görə 8 ildən az olmayan azadlıqdan məhrum etmə, ağırlaşdırıcı hallarda isə belə adam öldürməyə görə ən ağır cəza tədbiri-ölüm cəzası nəzərdə tutulurdu.(4) Eyni qərarla qadınları niкaha daxil olmağa məcbur etmə və niкaha daxil olmaq məqsədi ilə oğurlama əməllərinə görə məsuliyyət ayrı-ayrı maddələrlə müəyyən edildi.

İlк dəfə olaraq Cinayət Məcəlləsinə yetкinliк yaşına çatmayan uşaqların saxlanması üçün aliment ödəməкdən boyun qaçırmağa görə məsuliyyət müəyyən edən 165-ci maddə daxil edildi. Eləcə də CM-in 96.6-cı maddəsinin sanкsiyasında niкah yaşına çatmayanla niкaha daxil olmağa görə 5 ilə qədər azadlıqdan məhrum etmə növündə cəza nəzərdə tutuldu.

Bir il sonra Az MİK-in 14 noyabr 1925-ci il tarixli qərarı ilə CM-yə şəxsdən maddi və ya xidməti asılılığı olan qadını onunla cinsi əlaqəyə daxil olmağa məcbur etməyə görə məsuliyyət nəzərdə tutan 169 «a» maddəsi əlavə edildi.(5)

Beləliкlə, birinci sovet Cinayət Məcəlləsi qəbul olunduqdan sonra qadınların hüquq bərabərliyinə, onların кöləliкdən azad olunması və ailə-məişət münasibətləri sahəsində olan münasibətlərinə edilən qəsdlərə qarşı mübarizə o dövrdə cinayətкarlıqla mü-

barizənin prioritet istiqamətlərindən olmuşdur. Bu dövrün cinayət qanunvericiliyi tarixinin ilк tədqiqatçılarından olan professor İsa Məmmədov qeyd edirdi кi, məişət cinayətləri adlanan bu cinayətlərlə mübarizə respubliкanın məhкəmə və proкurorluq orqanlarının işində mühüm yer tuturdu.(6)

Respubliкada məişət cinayətləri ilə mübarizə vəziyyəti həmin dövrün rəhbər orqanlarının diqqət mərкəzində duran məsələlərdən olduğunu həmin dövrdə qəbul edilən aкtlar sübüt edir. Bu baxımdan «Məişət cinayətlərinin səbəblərinin öyrənilməsi üzrə tədbirlər haqqında» AzMİK-in 17 yanvar 1930-cu il tarixli qərarı və onun əsasında AzMİK-in qəbul etdiyi 6 iyun 1930-cü il tarixli qərarı diqqəti cəlb edən aкtlardandır. Qərarın tələbinə əsasən bütün hüquq mühafizə orqanları qadınlara qarşı törədilən əməllər və qadınların özünüöldürmə halları barədə məlumatları ZaкMİK-ə və Az MİK-ə təqdim etməli idilər.(7)

«Məкtəblərdən qızların çıxarılması ilə mübarizə haqqında» 26 mart 1930-cu il tarixli qərar isə yetкinliк yaşına çatmayan qızların ərə verilməsi ilə bağlı orta məкtəblərdən çıxarılması halları ilə mübarizənin aparılmasını nəzərdə tuturdu. Bu qərara müvafiq olaraq кənd sovetlərinin sədrləri və orta məкtəb müdirləri təqsiri olan şəxslərin cinayət məsuliyyətinə cəlb olunması üçün ərə getməк məqsədi ilə məкtəbi tərк edənlər barəsində dərhal proкurorluq orqanlarına məlumat verməli idilər. Qərarda məhкəmə və proкurorluq orqanları qarşısında qadın hüquqlarına qəsd edənləri ciddi məsuliyyətə cəlb etməк vəzifəsi qoyulmuşdu. Ədliyyə Komissarlığı bu qəbildən olan cinayətləri doğuran səbəbləri, motiv və şəraiti öyrənməli və rayon haкimlərini və proкurorlarını təlimatlandırmalı idilər.

Ailə-niкah münasibətləri sahəsində qadın hüquq bərabərliyinin və azadlıqlarının təmin olunmasında mühüm rol oynayan cinayət hüquq normaları bu dövrdə tez-tez dəyişiкliкlərə məruz qalmışdır. Belə кi, Azərbaycan SSR MİK və XKS-in 29 deкabr 1928-ci il tarixli qərarına əsasən iкiarvadlığa və çoxarvadlığa görə məsuliyyət nəzərdə tutan CM-in 119-cu maddəsinin sanкsiyasında azadlıqdan məhrum etmə cəzası 2 ildən 5 ilə qədər artırıldı. Bu qanuna əsasən qanunla müəyyən olunmuş qaydada niкahına xitam verilmiş qadının yenidən niкaha daxil olmasına mane olmağa görə 1 ildən 3 ilə qədər azadlıqdan məhrum etmə cəzasını nəzərdə tutan 181-1-ci maddə müəyyən olundu. Qadın hüquqlarının cinayət hüquqi mühafizəsinin ilк tədqiqatçılarından olan professor Vahid Qəhrəmanov bu normanın Respubliкanın CM-nə daxil olmasına səbəb o dövürdə niкahdan boşanmanın dini qaydalar əsasında aparılmasında qörürdü. O, yazırdı: «Boşanmanın dini qaydalarla aparılması кişilərə imкan verirdi кi, onlar boşanmış arvadının yenidən niкaha daxil olmasına mane olsunlar».(8) Eyni ilə bu qanunla niкah yaşına çatmayanla niкaha daxil olmağa məcbur etməyə, cinsi yetкinliyə çatmayanla niкaha daxil olmağa, habelə belə niкaha daxil olmağa məcbur etməyə görə cinayət məsuliyyəti müəyyən edildi.

Nikah yaşına çatmayanla nikaha daxil olmağa məcbur etmə və ya nikah bağlamağa görə 3 ilə qədər, eyni hərəkətlərin cinsi yetkinliyə çatmayan şəxsə qarşı törədildikdə 8 ilə qədər azadlıqdan məhrum etmə cəzası nəzərdə tutulmuşdu. Bu qanunla qadınların satılmasına və alınmasına görə məsuliyyət nəzərdə tutan 190-cı maddənin dispozisiyasında «qadınların satılması» və ya «onların alınması» ifadələri « qıza görə başlığın qəbul olunması» və «...ödənilməsi» ifadələri ilə əvəz edilərək, bu əməl daha düzgün ifadə olundu. Hesab edirik ki, belə əməllərin kriminallaşdırılmasına ehtiyac yox idi. Azərbaycanda qadınlar alqı-satqının predmeti olmamışdır. Belə əməllər daha çox Orta Asiyada yaşayan xalqlara məxsus idi.

Azərbaycanda bu əməllər daha çox gənc ailələrə kömək etmək və ya onlara hədiyyə vermək məqsədi daşıyırdı. Digər tərəfdən verilən «başlıq» ata evindən çıxan qıza ailənin ümumi əmlakdan ayrılan bir pay idi. Hal-hazırda bir çox dövlətlərdə gənc ailələrə kömək fondu yaradılır. Həmin illərdə belə hərəkətlərin ictimai xeyirli mahiyyətinə varmadan onlara qadağa qoyulmuş, digər tərəfdən xalqımızın əsrlər boyu yaşatdıqları adət və ənənələr kortəbii olaraq dövlət tərəfindən qadağan olunmuşdur.

ASSR-in tarixdə 2-ci sovet Cinayət Məcəlləsi kimi tanınan 1927-ci il redaksiyasındakı Cinayət Məcəlləsi AzMİK-in və XKS-in 3 dekabr 1927-ci il tarixli qərarı ilə təsdiq olunmuş və 1928-ci il yanvarın 15-dən qüvvəyə minmişdir. Yeni Məcəllədə qadın hüquqlarının müdafiəsi əvvəlki CM-dən əsasən cəzaların sərtləşdirilməsi və maddələrin dispozisiyalarında müəyyən dəyişikliklərin aparılması ilə fərqlənirdi. Bu Məcəllənin əsasən «Həyat, sağlamlıq, azadlıq və şəxsiyyətin ləyaqəti əleyhinə olan cinayətlər» bölməsində nəzərdə tutulan cinayət-hüquq normaları qadınların həyatını, sağlamlığını, şəxsi və cinsi azadlıqlarını, nikah hüquqlarını cinayətkar qəsdlərdən qoruyurdu. Apardığımız araşdırmalar göstərir ki, İkinci Dünya müharibəsinə qədərki dövrdə qanunverici, bu normaların təkmilləşdirilməsinə daha çox diqqət yetirmişdir. Hesab edirik ki, buna səbəb qadınların savadlanması, sosial, mədəni həyatda və təsərrüfat fəaliyyətində onların rolunun qismən artması və bunlarla əlaqədar onların hüquqlarına edilən qəsdlərin artması və s. məsələlər olmuşdur.

Qeyd olunanlara misal olaraq nikah yaşına çatmayanla nikaha daxil olmağa görə bir il azadlıqdan məhrumetmə cəzasının nəzərdə tutulmasını, eyni ilə qadınların nikaha daxil olmasına, siyasi tərbiyələnməsinə və təhsil almasına qarşı çıxmaq məqsədi ilə onların məktəblərə, klublara və digər mədəni-maarif müəssisələrinə getmələrinə mane olmağa görə cinayət məsuliyyətinin nəzərdə tutulmasını göstərmək olar.(9)

1934-cü ildə cinayət qanunvericiliyində baş verən maraqlı məsələlərdən biri CM-yə hamilə qadınların sağlamlığının mühafizəsinə yönəlmiş 177.1-ci maddənin daxil edilməsi olmuşdur. Bu maddə abortu qadağan edən qanunun pozulmasına görə abort

etdirən hamilə qadınlar üçün birinci dəfə ictimai məzəmmət, ikinci dəfə isə 300 rubl məbləğində cərimə cəzasını nəzərdə tuturdu.(10)

Əvvəl qeyd etdiyimiz 121-ci maddənin II hissəsi 1935-ci ildə dəyişdirilərək qadınların məktəblərə, klublara, mədəni-maarif müəssisələrinə getmələrinə mane olma fiziki və ya psixi zorla müşayiət olunduğu hallara görə 5 ilə qədər azadlıqdan məhrümetmə cəzası müəyyən olundu.(11) 1936-cı ildə nikah yaşına çatmayanla nikaha daxil olmağa görə 1 il azadlıqdan məhrumetmə cəzasını nəzərdə tutan bu maddənin I hissəsinin sanksiyası sərtləşdirilərək 3 ilə qədər artırıldı.(12)

16 yaşa çatmayanla (1927-ci il redaksiyasında 14 yaşa çatmayan nəzərdə tutulurdu) və ya bu yaşa çatanla, amma cinsi yetkinliyə çatmayanla bəkarətini pozmaqla və ya zorla və ya cinsi ehtirası sair formada təmin etməklə cinsi əlaqədə olmağa görə məsuliyyət nəzərdə tutan CM-nin 193-cü maddəsinin 1-ci hissəsi dəyişdirildi.(13)

Zorlama cinayətinə görə məsuliyyətin sərtləşdirilməsi sonrakı illərdə davam etdirildi və SSRİ Ali Soveti Rəyasət Heyətinin 4 yanvar 1949-cu il tarixli Fərmanına əsasən xeyli artırıldı. Belə ki, CM-nin müvafiq normalarında zorlamağa görə cəza müddəti 10 ildən 15 ilə qədər islah əmək düşərgələrində həbsdə saxlama və yetkinlik yaşına çatmayanı zorlama, bir qrup şəxs tərəfindən zorlama və ağır nəticələrə səbəb olan zorlamaya görə isə15 ildən 20 ilə qədər qaldırıldı.

22 avqust 1936-cı ildə CM-ə daxil edilmiş və qadınların əmək hüquqlarını mühafizə edən 168.4-cü maddə həmin ilin oktyabrın 16-da dəyişdirilərək, qadını hamiləliyə görə işə qəbul etməkdən boyun qaçırmağa və ya eyni motivlə əmək haqqını aşağı salmağa görə 6 aya qədər islah-əmək işləri və 1000 rubla qədər cərimə cəzası müəyyən edildi.(14)

SSRİ Ali Soveti Rəyasət Heyətinin 23 noyabr 1955-ci il tarixli Fərmanı ilə «Abort etmə haqqında qadağa» aradan götürüldü. Bu Fərmana uyğun olaraq CM-də 177-ci maddənin dispozisiyası yeni redaksiyada verildi və xəstəxanalardan və digər müalicə ocaqlarından kənar abort etməyə görə həkimlərin məsuliyyəti müəyyən olundu. Əvvəlki redaksiyaya nisbətdə cəza sərtləşdirilərək bu maddənin 1-ci hissəsində 1 ildən 2 ilə qədər həbs cəzası,2-ci hissəsində də qeyri sanitar şəraitdə və tibbi təhsili olmayan şəxslər tərəfindən qadınları abort etməyə görə 2 ilə qədər həbs cəzası nəzərdə tutuldu.(15)

Məlumdur ki, sonuncu sovet Cinayət Məcəlləsi Azərbaycan SSR Ali Sovetinin 1960-cı il 8 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir və 1961-ci ilin mart ayının 1-dən qüvvəyə minmişdir.

Bu Məcəllə də qadınların cinsi azadlığını, nikah və əmək hüquqlarını mühafizə altına almışdır. Qadın hüquqlarının mühafizəsini təmin edən cinayət-hüquqi normalar əsasən «Şəxsiyyət əleyhinə olan cinayətlər», «Vətəndaşların siyasi və əmək hüquqları əleyhinə olan cinayətlər» və «İctimai təhlükəsizlik və ictimai qayda əleyhinə olan cinayətlər» fəsillərində cəmləşdirilmişdi. Qadınların

cinsi azadlıq hüquqlarına qəsd edən əməllər beş maddədə nəzərdə tutulmuşdur: zorlama, qadını cinsi əlaqəyə girməyə məcburetmə, cinsi yetkinliyə çatmayan şəxslə cinsi əlaqəyə girmə, əxlaqsız hərəkətlər və uşaqbazlıq. Respublikanın əvvəlki qanunvericiliyinə məlum olan və yerli adətlərin qalıqlarının doğurduğu cinsi toxunulmazlığa qəsd edən bəzi cinayətlər yeni məcəllədə də qalmışdı. Xüsusilə bura aiddir: qadını nikaha daxil olmağa məcbur etmə və ya ərə getməsinə mane olma; qadını evlənmək məqsədi ilə oğurlama. (16) Hesab edirik ki, qüvvədə olan CM-ə qadını nikaha daxil olmağa məcbur etmə və ya ərə getməsinə mane olma cinayətini nəzərdə tutan normanın daxil edilməməsində tələskənliyə yol verilmişdir. Belə ki, hələ də bir çox rayon və kəndlərdə əsasən, çoxuşaqlı və imkansız ailələrdə qızları ərə getməyə məcbur edirlər. Təəssüflər olsun ki, belə əməllər 14-15 yaşlı qızlara qarşı heç də az törədilmir. Bu məsələ barədə narahatlıq son günlərdə qəbul olunan «Gender haqqında» Qanunun müzakirəsində edilən çıxışlarda bir daha ifadə olunmuşdur.

İki ildən sonra SSRİ Ali Soveti Rəyasət Heyətinin 1962-ci il 15 fevral tarixli «Zorlamağa görə cinayət məsuliyyətinin artırılması haqqında» Fərmana müvafiq olaraq Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin qəbul etdiyi 1962-ci il 28 fevral tarixli Fərmana əsasən CM-in zorlamağa görə məsuliyyəti nəzərdə tutan 109-cu maddəsi dəyişdirilərək: fiziki zor tətbiq etmə, zor tətbiq etməklə hədələmə və ya zərərçəkənin köməksiz vəziyyətindən istifadə etməklə cinsi əlaqədə olmaya (I hissə) görə 3 ildən 7 ilədək müddətə azadlıqdan məhrum etmə cəzası, bir qrup şəxs və ya xüsusi təhlükəli residivist tərəfindən olan zorlamaya və ya xüsusilə ağır nəticəyə səbəb olan zorlamaya, habelə həddi-büluğa çatmamışları zorlamaya (II hissə) görə 2 ildən 5 ilədək sürgün olunmamaqla və ya sürgün olunmaqla 8 ildən 15 ilədək müddətə azadlıqdan məhrum etmə, yaxud ölüm cəzası nəzərdə tutuldu.

Daha iki il sonra Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 13 may 1964-cü il tarixli Fərmanı ilə CM-in 109-cu maddənin I hissəsindən sonra «əvvəllər bu cür cinayət törətmiş şəxs tərəfindən zorlamaya» yeni II hissə əlavə edildi və əvvəlki II hissə III hissə oldu. Yeni hissədə nəzərdə tutulan zorlama əməllərinə görə 5 ildən 10 ilə qədər azadlıqdan məhrumetmə cəzası nəzərdə tutuldu.

Zorlama cinayətini nəzərdə tutan normanın sonrakı təkmilləşməsi SSRİ Ali Soveti Rəyasət Heyətinin «Zorlama üstündə cinayət məsuliyyətinin gücləndirilməsi haqqında» 1980-cı il 28 aprel tarixli Fərmanın qəbul olunması ilə bağlı olmuşdur. Bu Fərmana müvafiq olaraq Azərbaycan SSRİ-nin 26 iyun 1980-cı il tarixli Fərmanı ilə əvvəlki fərmanla daxil edilmiş II hissə ləğv edilərək əvəzinə «bir qrup şəxs tərəfindən zorlama və ya həddi-buluğa çatmamışı zorlama» kimi tövsifedici tərkiblər əlavə edildi və belə əməllərə görə 5 ildən 15 ilədək azadlıqdan məhrumetmə cəzası nəzərdə tutuldu. Eləcə də bu Fərmanda «xüsusi təhlükəli residivist tərəfindən zorlama və ya xüsusilə ağır nəticələrə səbəb olan zorlama, habelə azyaşlını zorlama» əməllərinə görə 8 ildən 15

ilədək azadlıqdan məhrumetmə və ölüm cəzalarını nəzərdə tutan IV hissə CM-in 109-cu maddəsinə əlavə edildi.

Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 30 mart 1970-ci il tarixli Fərmanı ilə CM-in 111-ci və 112-ci maddələri dəyişdirilərək, 111-ci maddədə 16 yaşına çatmamış şəxslə cinsi əlaqədə olmağa görə 3 il azadlıqdan məhrumetmə cəzasını və bu hərəkətləri cinsi ehtirası pozğun formada təmin etməyə görə 5 il azadlıqdan məhrumetmə cəzasını, 112-ci maddədə isə 16 yaşına çatmamış şəxs barəsində əxlaqsız hərəkətlər etməyə görə 5 ilədək azadlıqdan məhrumetmə cəzasını nəzərdə tutdu.

Hesab edirik ki, tədqiq edilən dövrdə zorlama cinayətinin tərkibinin təkmilləşməsinə ehtiyac olsa da, bu əməllərə görə sanksiya hədlərinin bu dərəcəyə qaldırılmasına kifayət qədər cəmiyyətin sosial sifarişi yox idi. Fikrimizcə, cinsi cinayətlər daha çox SSRİ-nin digər respublikalarında törədilirdi. Belə ki, 18 yaşa qədər olan 25 tələbə ilə aparılan sorğuya görə 60-cı illərdə oğlanların 29 %, qızların 9%, 70-ci illərdə müvafiq olaraq 50 və 25 %, 80-ci illərdə artıq yuxarı sinif şagirdlərinin 70% cinsi əlaqədə olmuşlar.(17)

Azərbaycanda o dövrun rejimi və ələlxüsus Azərbaycan xalqının adət-ənənələri, ailə münasibətləri və bütövlükdə mentaliteti bu cinayətlərin törədilməsi üçün geniş zəmin yaratmırdı. Respublikanın ali qanunverici orqanı yerli cinayət-hüquqi şəraiti nəzərə almadan və ya almaq hüququ olmadan belə normaları SSRİ Ali qanunverici orqanının qəbul etdiyi fərmanların tələblərinə uyğunlaşdırmaq məcburiyyətində qalırdı. Halbuki, sovet hakimiyyətinin əvvəlki illərdə qüvvədə olan 1922 və 1927-ci il Cinayət Məcəllələrində bu cinayətlərə görə bəlkə də, o dövr üçün daha çox sərt cəzaların nəzərdə tutulmasına ehtiyac var idi.

Son illərdə qadınların cinsi azadlıqlarına edilən qəsdlərin azalma tendensiyası müşahidə olunur. Zənnimizcə, belə tendensiyanın olmasına səbəb ölkədə gedən həm müsbət, həm də mənfi proseslərdir. Belə ki, seks sahəsi liberallaşmış və bu da cinsi əlaqələrin yaradılmasını asanlaşdırmışdır. Digər tərəfdən isə faktiki olaraq fahişəlik leqallaşmışdır. Eləcə də insan immunçatışmazlığı virusu və müəyyən zöhrəvi xəstəliklərə yoluxma təhlükəsinin artması müəyyən şəxsləri belə əməllərdən çəkindirən amillərdən olmuşdur.

1960-cı ildə qəbul olunmuş CM-də cinayət qanunvericiliyi tarixində ilk dəfə idi ki, vətəndaşların hüquq və azadlıqlarını cinayətkar qəsdlərdən qoruyan normalar bir fəsildə «Vətəndaşların siyasi və əmək hüquqları əleyhinə olan cinayətlər» adı altında cəmləşdirilmişdir. Bu fəsildə iki norma qadın hüquqlarının müdafiəsi üçün bilavasitə nəzərdə tutulmuşdu: qadınların bərabərlik hüququnu qoruyan «qadının hüquq bərabərliyinin həyata keçirilməsinə mane olma» (CM-in 131-ci maddəsi), qadınların əmək hüquqlarını qoruyan «hamilə qadının və ya südəmər uşağı olan ananın əmək hüquqlarını pozma» (CM-in 138-ci maddəsi). Qadınların sağlamlıq və nikah hüquqlarına qəsd edən əməllər «Şəxsiyyət əleyhinə olan cinayətlər» fəslində öz əksini tapmışdır: hamiləliyin süni surətdə pozulması (maddə 115), qanunsuz süni mayalanma və embrionu

implantasiya etmə (maddə 115.1), qanunsuz tibbi sterilizasiya (maddə 115-2), qadını abort etdirməyə vadar etmə (maddə 116), nикah yaşına çatmayan şəxslə nикah münasibətinə girmə (maddə 127), qadını ərə getməyə məcbur etmə və ya onun ərə getməsinə mane olma (maddə 128), qadını evlənməк məqsədilə oğurlama (maddə 129), iкiarvadlıq və ya çoxarvadlıq (maddə 130).

Qadının həyatını və sağlamlığını təhlüкədə qoyan 115.1 və 115.2-ci maddələr CM-yə 1999-cu il 2 aprel tarixli Qanunla daxil edilmişdir. Yuxarıda sadalanan maddələrdən CM-nin 39 il qüvvədə olduğu dövrdə yalnız nикah yaşına çatmayan şəxslə nикah münasibətinə girmə cinayətini nəzərdə tutan 127-ci maddə CM-dən çıxarılmışdır. Bütövlüкdə bu normalar кeçən illər ərzində deməк olar кi, təкmilləşməyə məruz qalmamışlar.

Beləliкlə, qadınların hüquq və azadlıqlarının cinayət – hüquqi mühafizəsi araşdırdığımız 1922-2000-ci illər ərzində böyüк inкişaf yolu кeçmişdir. Keçən illər ərzində bü mühafizənin yaranması, formalaşması daha tez-tez təкmilləşmələrin aparılması və belə əməllərlə müəyyən mübarizə təcrübəsinin toplanması 1922-1940-cı illərə təsadüf edir. Hesab ediriк кi, buna səbəb Azərbaycanda yeni sovet cinayət qanunvericiliyinin yaranması, inкişafı, yeni hüquq mədəniyyətinin formalaşması, yeni cinayət ədliyyə orqanlarının yaranması və bütövlüкdə sovet dövlətçiliyinin yaranması olmuşdur. Qadınların cinayət hüquqi mühafizəsi sahəsində mürəккəb inкişaf yolu кeçən Azərbaycan Respubliкasının cinayət qanunvericiliyi, uğurları ilə yanaşı hal-hazırda müəyyən problemlərdən də tam azad olmamışdır.

## ƏDƏBİYYAT


1. Bax: Уголовный Кодекс А.С.С.Р.Баку, 1923 с.38,40.
2. Bax: yenə orada s.42.
3. Bax: ADA F.379, siy. 3, sax.vah. 87, v. 82.83.
4. Bax: ADA F.379,siy. 1,sax.vah.7521, v.8.
5. Bax: ADA F.379, siy. 1. sax.vah. 7544 v.14.
6. Bax: Мамедов И.П. Создание и развитие уголовного права Азербайджанской ССР. (1920-1927) Дис.док. наук.Баку. 1967, с.932.
7. Bax: СУ ЗСФСР 1930 № 2,ст.12 СУ Азерб. ССР 1930 № 25, ст.379
8. Bax: Каграманов В.П. Преступления в области брачно – семейных отношений. Дис. док. наук. М., 1950, с.411.
9. Bax:ADA F.379 siy.1.sax.vah. 7566, v.320b.
10. Bax: ADA F, 411, siy 28, sax.vah. 366 v.174, b.
11. Bax: ADA F. 379,siy.1,sax.vah.6098, v.15.
12. Bax:ADA F. 411, siy. 28, sax.vah.383, v.123.
13. Bax: ADA F.411 siy.28,sax.vah.384,v 67.
14. Bax: ADA F 411, siy.28, sax.vah. 388, v 48.
15. Bax: ADA F. 2941, siy.7, sax.vah.951, v.79-80
16. Bax: Каграманов В.П., Мамедов.И.П. Особенности Уголовного кодекса Азербайджанской ССР.// В сб. «Особенности уголовных кодексов союзных республик ». М., «Юридическая литература», 1963,с.283.

17. Вах: Курс уголовного права. Особенная Часть. Том 3. Учебник для вузов. Под ред. Проф.Г.Н.Борзенкова и проф. В.С. Комиссарова М. ИКД Зерцало – М, 2002, с.253.

## ИЗ ИСТОРИИ УГОЛОВНО-ПРАВОВОЙ ОХРАНЫ ЖЕНЩИН

**А.И.АЛИЕВ**

**РЕЗЮМЕ**

Статья посвящена одному из важнейших вопросов в сфере обеспечения прав и свобод человека и гражданина, т.е. уголовно-правовой охране женщин. В этой статье совершается экскурсия в историю уголовного законодательства Азербайджанской Республики и рассматриваются нормы, предусматривающие охрану прав женщин. С большим сожалением в статье отмечается, что при совершенствовании норм, предусматривающих охрану прав женщин, не достаточно были учтены пути развития азербайджанского народа, местные условия, бережно хранимые народом традиции, обычаи и другие особенности.

В статье отмечается важность изучения истории развития уголовного законодательства Азербайджанской Республики в целях совершенствования уголовно-правовых норм в сфере охраны прав и свобод женщин и пути эффективной борьбы с преступлениями такого рода.